UOT 327
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.236

# RUSİYANIN SURİYADA FƏALİYYƏTİNƏ RETROSPEKTİV BAXIŞ VƏ GƏLƏCƏK PERSPEKTİVLƏR

**SƏBİNƏ MƏMMƏDOVA**
*Azərbaycan Dillər Universiteti, Beynəlxalq münasibətlər kafedrası, müəllim*
*Azərbaycan Dillər Universitetinin doktorantı*
*E-mail: mammadovasabina35@gmail.com*

2011-ci ilin mart ayında başlayan Suriya böhranı 2010-cu ilin sonunda Tunisdə baş qaldıran "Ərəb baharı"nın bir hissəsi kimi başladı. "Ərəb baharı", ilk növbədə, demokratik və mədəni hüquqlar, eləcə də daha çox azadlıq və rifah uğrunda dinc etiraz kimi başlamasına baxmayaraq, bir ay keçdikdən sonra etiraz iştirakçıları-müxalif qrupları Əsəd rejiminin sərt hərəkətləri ilə üzləşdi. Mülki əhali arasında ölüm sayının artması, müxalifət tərəfindən müqavimət göstərilməsi vəziyyəti ağırlaşdırdı və mərkəzi hökuməti qəzəbləndirdi. Bu arada müxalif qruplar təşkilatlanaraq Azad Suriya Ordusunu (ASO) qurmağa başladı. ASO tədricən Suriyada yeganə qanuni silahlı müxalifətə çevrilərək ərazinin əhəmiyyətli bir hissəsinə nəzarəti ələ keçirdi və ən azı iki il ərzində ilk növbədə ABŞ tərəfindən dəstəkləndi. O zaman ABŞ ASO üçün döyüşən əsgərləri hətta təchizat-təlimat proqramı ilə təmin etmişdi [1].

Rusiya Federasiyasının Orta Şərqə marağı 2010-cu ildən sonra başlamışdır. Rusiya Sovet İttifaqı zamanı da burada aparıcı aktor idi [2]. SSRİ-nin dağılmasından sonra Moskva SSRİ-nin əvvəllər güclü olduğu bir çox bölgələrdə, xüsusən də Yaxın Şərqdə təsirini itirmiş, bir çox bölgələrdən geri çəkilmək məcburiyyətində qalmışdır. Vladimir Putinin Rusiya Federasiyasında hakimiyyətə gəlməsi ilə Kreml təkcə Mərkəzi Asiya və Qafqazda deyil, Yaxın Şərq və Afrikada da iştirakını artırdı. Buna baxmayaraq, Yaxın Şərqi bürüyən "Ərəb baharı" Rusiyanın bölgədəki siyasətini alt-üst etdi; sildiyi borclar, verdiyi kreditlər, imzaladığı müqavilələr boşa çıxdı. Kremlin bölgədə qalan yeganə bazası Suriya olduğu üçün Moskva Suriyaya və Əsəd rejiminə bu qədər dəstək verirdi [3].

Rusiyanın Yaxın Şərq siyasəti kökündə əslində keçmiş baş nazir, keçmiş xarici işlər naziri, daxili və xarici kəşfiyyatın keçmiş rəhbəri Yevgeni Primakovun irsi durur. Onun praqmatik, vətənpərvər, rus milli maraqlarına əsaslanan siyasi baxışları, Rusiyanı böyük dövlətə çevirmək ambisiyaları müasir Rusiyanın xarici siyasəti ilə üst-üstə düşür. Primakov irsi ABŞ-a qarşı çoxqütblü dünya nizamı qurmaq; daha balanslaşdırılmış və mürəkkəb xarici siyasət həyata keçirmək; Yaxın Şərqə doğru genişlənmək; və Rusiyanın geosiyasi maraqlarının mövcud olduğu bütün regionlarda Qərbin təsirini tarazlaşdırmaq məqsədi daşıyır [4].

Primakov doktrinasının baxışı və praktikasından əlavə, Sovet irsi Rusiyanın Suriya və Yaxın Şərq siyasətinin formalaşdırılmasında əsas rol oynamışdır. Primakov Sovet irsini özü təmsil edir. Bununla belə, Sovet İttifaqının Suriya ilə tarixi əlaqələri və onun uzunmüddətli rejimi Kremlin Suriya siyasətinin əsasını qoymuşdur. Bununla əlaqədar olaraq, kökləri "Soyuq müharibə" dövrünə dayanan Baas ideologiyasının formalaşdırdığı Suriya kimliyi, Rusiya-Suriya münasibətlərinin ən mühüm aspektlərindən biri kimi qiymətləndirilib. Baas ideologiyası üç əsas ideya üzərində qurulmuşdur: anti-imperializm, dünyəvilik və sosializm. Bu ideologiya əsasən Qərb təsirini ölkədən qovmaq məqsədi daşıyımış və Sovet İttifaqının irəli sürdüyü ideya və siyasətlərə rəğbət bəsləmişdir [5].

Başlanğıcda Rusiyanın Suriyaya müdaxiləsi planlaşdırılmamış bir hərəkət deyil, hesablanmış risk idi. Bu iştirakla Rusiya öz dairəsindən kənarda ilk hərbi əməliyyatında ABŞ-a qarşı durmağı bacardı və özünü yenidən böyük güc kimi təsdiqlədi [6].

Suriya Primakov doktrinasının qeyri-müəyyən nümayişi oldu. Beləliklə, Rusiyanın Suriyada fəaliyyəti, yəni xarici siyasət baxışının özünəməxsusluğu deyil, Primakovun baxışının genişləndirilməsi idi [7].

Rusiyanın Suriya siyasətində şərtləndirən amillərdən biri geosiyasi maraqlardır. Bu mövzuda, bir neçə prioritet geosiyasi maraqlar müəyyən edilə bilər. İlk növbədə, regionda ABŞ və Qərbin təsirinə qarşı durmaq. Bu məqsəd Primakov irsi və İkinci Dünya müharibəsindən sonra meydana çıxmış strategiyaların təsirləri ilə çox bağlıdır, məsələn. Çəkindirmə siyasəti [8]. Corc Kennanın müəyyən etdiyi Çəkindirmə siyasəti Sovet təsirini onun hüdudlarından kənarda saxlamaq məqsədi daşıyırdı. Bu baxımdan ABŞ Qərbi Avropanın enerji təchizatı təhlükəsizliyini və Yaxın Şərq bazarına nəzarəti təmin etmək üçün İran, İraq, Suriya və Misir kimi Yaxın Şərq ölkələri üzərində Sovet İttifaqı ilə rəqa-

bətə girdi [1]. Tarixi müttəfiqi olan Suriyanı, xüsusilə də ABŞ siyasətindən qorumaq bu baxımdan Moskva üçün mühüm əhəmiyyət kəsb edib.

Rusiyanın Suriyaya verdiyi digər əhəmiyyət isə Şərqi Aralıq dənizindəki strateji maraqlarından və bu bölgədəki enerji resurslarından qaynaqlanır. Eyni zamanda, ölkənin Avropaya enerji ötürəcək xətlərin marşrutu ola bilməsi ehtimalı da Suriyanı Rusiya üçün çox önəmli etmişdir. Qətərin təbii qazını Suriya üzərindən Avropaya ixrac etməyi planlaşdıran Rusiya belə bir halda təbii qazın Avropa üzərindəki inhisarını qırmamaq üçün Suriyada təsirli olmağı zəruri saymışdır [12].

Rusiya üçün digər bir səbəb Tartus limanıdır. Bu liman Rusiya üçün bir çox səbəbdən önəmlidir. SSRİ dövründə Vyetnam, Kuba, Misir və Suriyada hərbi-dəniz bazaları var idi. SSRİ dağıldıqdan sonra Rusiya Federasiyası maliyyə çatışmazlığı və bu bazalara ehtiyac olmadığını səbəb gətirərək bağlamışdır. 2000-ci illərdə onun iki hərbi-dəniz bazası var idi. Bunlardan biri də Tartus limanıdır. 2005-ci ildə Rusiya Suriya ilə bu limanla bağlı yeni bir müqavilə imzalamış və daha uzun müddət bu limanı istifadə edəcəyinə zəmanət almışdır [11].

Digər bir geosiyasi maraq terrora qarşı mübarizə aparmaq və terror təhlükəsini onun sərhədlərindən uzaq tutmaq və ya aradan qaldırmaq olmuşdur. Moskvadakı siyasətçilər əslində terror təşkilatlarının Moskva sərhədləri daxilində yayılmasından narahat olmuş, Suriyada fəaliyyət göstərən radikal qrupları potensial təhlükə kimi görmüş və onları Rusiyada yaşayan müsəlman əhaliylə əlaqələndirmişlər. Bu cür siyasətləri təcrübədən keçirən Rusiya ABŞ-ın regionda təsirini tarazlaşdırmaqla yanaşı, əks-təhdid yönümlü strategiyalar qəbul etmişdir. Bundan başqa, Rusiyanın beynəlxalq arenada statusunu nümayiş etdirməsi üçün ABŞ-nin siyasətinə tab gətirmək çox vacib idi. ABŞ-nin təsirinə qarşı çıxmaq Rusiya tərəfindən Amerika hegemonluğunu qırmaq üçün bir yol kimi qəbul edilir [9].

Rusiyada 18-20 milyon müsəlman əhalinin çoxu çeçenlərdən ibarətdir. Çeçenlər İŞİD sıralarına qoşularaq vuruşur və onaların sayı getdikcə artmaqda idi. Bu təşkilatı həm milli, həm də regional bir təhlükə olaraq görən Rusiyanı bu hal daima narahat etmişdir [13]. Suriyada İŞİD və digər radikal qruplaşmaların olması onu narahat etdiyi üçün İŞİD-lə mübarizə Rusiya üçün Qafqaz və Orta Asiyanın təhlükəsizliyi baxımından çox əhəmiyyə daşımışdır.

Rusiyanın diqqətini çəkən digər məsələ İŞİD liderləri arasında Qafqaz əsilli şəxslərin olması idi. 2015-ci ilin məlumatlarına əsasən Rusiyadan İŞİD-ə 1700 rus vətəndaşı qatılmışdır. Digər bir mənbəyə əsasən Rusiyadan İŞİD-ə qoşulan rusların sayı 2500 ilə 7000 civarında olub. Bu baxımdan Rusiyanın Suriyada olmasının səbəblərindən biri kimi radikal qrupların Mərkəzi Asiya və Qafqaza yayılmasının qarşısını almaq da götürülə bilər [2].

İŞİD sıralarında döyüşən terrorçuların Rusiyaya qayıtdıqdan sonra ölkədə qeyri-sabitlik yaradacağını, Suriyada hakimiyyətin radikal islam qruplarının əlinə keçəcəyi təqdirdə Rusiyanın Şimali Qafqazdakı radikal hərəkatlarının yenidən artacağı və növbəti hədəfin Rusiya olacağını nəzərə alan Moskva Suriyada Əsəd rejimini dəstəkləmək və Suriyadakı radikal islamçı qrupları təmizləməyin gərəkli olduğunu düşünmüşdür [13].

Digər maraqlardan biri iqtisadi və siyasi təsir baxımından əhəmiyyət daşıyan silah bazarıdır. Suriya kimi böyük daxili böhran yaşayan və Rusiyanın yaxın müttəfiqi olan ölkələr silah ticarəti baxımından mühüm tərəfdaş kimi çıxış edirlər [10]. Suriya ilə Rusiya arasında silah ticarəti 1956-cı ildən başlamışdır. 2000-ci ilə qədər Rusiya Suriyaya təxm. 26 mlrd. dollarlıq silah satmışdır və Suriya ordusu silahlarının 90 %-i Sovet və Rusiya istehsalı olmuşdur.

Rusiyanın Dəməşqə silah ixracı da mühüm rol oynamışdır. Rusiya ilə Suriya arasında 2005-ci ildən 2015-ci ilə qədər imzalanan silah müqavilələrinin dəyəri 5,5 milyard dollar təşkil etmişdir. Rusiyanın dünya silah ixracında Suriyanın payı 37 faiz, Suriyanın silah idxalında Rusiyanın payı 71 faiz olsa da, Rusiya Suriyanın silah ixracına nəzarət etmiş, eyni zamanda hərbi maşınlar üçün ehtiyat hissələri tədarük etmişdir. Bu səbəbdən də Suriyanın bu məsələdə Rusiyadan asılılığının davam etdiyi və rejimin çökəcəyi təqdirdə Rusiyanın Suriya üzərindəki strateji üstünlüyünü, bölgədəki mövcudluğunu və silah bazarı ilə yanaşı, Suriya ordusu üzərindəki nəzarətini də itirəcəyi diqqətə çatdırılırdı.

Rusiya Suriyada böhran olduğunu qəbul etsə də, sülhü pozan bu böhranın Əsədlə toqquşan müxalifətdən qaynaqlandığını düşünmüşdür. Rusiya Suriyada sülh və təhlükəsizlik probleminin olduğunu və zorakılığa son qoyulmalı olduğunu qəbul etmiş, lakin Əsəd rejiminin saxlanması şəraitində ölkənin milli suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün müdaxilənin tərəfdarı olmuşdur. Onun BMT-nin müdaxilə ilə bağlı qətnamələrinə qarşı çıxmasının əsas səbəbi Əsəd rejiminin liderlikdə qalacağına dair təminatların olmamasından qaynaqlandığını söyləmək olar. Əsəd rejimini qoruyaraq müdaxilə

etmək və Əsədə qarşı çıxan müxaliflərə qarşı tədbir görülməsini nəzərdə tutan qərarlar qəbul etməyin lehinə olduğu görülürdü [14].

Rusiyanın isti dənizlərə getmək istəyi bizə tarixdən bəllidir. Bu baxımdan Rusiyanın Suriyaya marağının yeni olmadığı şübhəsizdir. Bunu təkcə dövrümüzün qlobal güc mübarizəsi ilə izah etmək kifayət deyil. Çarlıq (1547-1721) və imperiya (1721-1917) dövründə rusların Yaxın Şərqə qarşı yürütdüyü siyasətdə Suriya xüsusi mövqeyə malik idi və bu xüsusi mövqe iki əsas səbəb üzərində qurulmuşdu. Bu səbəblərdən biri Suriya torpaqlarının Ortodokslar üçün müqəddəs sayılan Fələstin və ətraf ərazilərə yaxın strateji əhəmiyyəti idi. Digər bir səbəb isə 1682-ci ildə hakimiyyətə gələn I Pyotrun isti dənizlərə çıxış əldə etməsi ilə bağlı idi. Tarix boyu Fələstin və ətrafı pravoslav ruslar üçün mühüm dini ziyarət yeri və Rus Pravoslav Kilsəsinin mühüm təsir sahələrindən biri olmuşdur. Rus pravoslavları Fələstinə getmək üçün tarix boyu daha çox Suriya ərazisindən keçiblər. Bu səbəbdən Suriya torpaqlarının Rus pravoslavları üçün təhlükəsiz bir yol olması hər zaman rus hakim dairələri üçün mühüm məsələ olub və Osmanlı hakim dairələri ilə görüşlərdə bu məsələ gündəmə gətirilib. Öz müqəddəs vəzifələrini yerinə yetirmək üçün Fələstin torpaqlarına səfərə gedən bir çox rus pravoslavı Suriya torpaqlarını ziyarət edərək oradakı pravoslav xristian suriyalılarla ticarət və mədəni əlaqələri inkişaf etdirib. "İsti dənizlərə çıxmaq" siyasətini həyata keçirmək istəyən və Suriya torpaqlarının xüsusilə Aralıq dənizinə çatmasında geostrateji əhəmiyyətindən xəbərdar olan I Pyotr 43 il hakimiyyətdə olduğu müddətdə Osmanlı hakimiyyəti altında olan Suriyada Rusiya təsirini gücləndirmək üçün xüsusi səy göstərmişdir. I Pyotrun izlədiyi bu strategiya özündən sonrakı rus hökmdarlarını da istiqamətləndirdi və Suriya rusların Yaxın Şərqə və isti dənizlərə açılma siyasətində hər zaman xüsusi mövqe tutmuşdur [15].

Bu amilləri və səbəbləri nəzərə alan Rusiya Suriya böhranının lap əvvəlindən Dəməşqin tərəfində olmuşdur. Rusiyanın böhrana qarışması Rusiya Silahlı Qüvvələrinin keçmiş Sovet İttifaqının hüdudlarından kənarda ilk müdaxiləsi idi. Buna "Rusiyanın Yaxın Şərqdə canlanması" da deyilir [16].

Ərəb qiyamının yayıldığı Suriyada 2011-ci ildən başlayaraq hökumətin sərt müdaxiləsi və nümayişlərə xarici dövlətlərin də dəstəyi ilə vətəndaş müharibəsinə çevrilən prosesdə Rusiya həm Əsəd və onun ailəsi ilə olan tarixi əlaqələri, həm də geosiyasi, siyasi və strateji maraqları baxımından hadisələri bir sui-qəsd kimi qiymətləndirmiş və Əsəd hökumətini dəstəkləmişdir [13]. Bu səbəblərə görə BMT Təhlükəsizlik Şurasında Əsəd hökumətinin əleyhinə ola biləcək bütün qətnamələrə veto qoyaraq bu dəstəyi göstərməklə yanaşı, Əsəd hökumətinin sağ qalması üçün hər cür hərbi və texniki yardımlarla davam etdirmişdir [17].

Liviyaya müdaxiləyə qarşı çıxmayan Rusiya, Suriya ilə bağlı maraqlarına daha uyğun olduğunu düşündüyü fərqli siyasət yürütdü. Rusiyanın Liviyadakı maraqlarına baxmayaraq, Liviyaya müdaxilə zamanı Rusiyanın susması onun həm regional, həm də iqtisadi itkilərinə səbəb oldu və müdaxilədən sonra Rusiyanın Liviya ilə enerji müqavilələri nəinki ləğv edildi, əksinə Liviya bazarından açıq şəkildə kənarlaşdırıldı. Bu səbəbdən Rusiyanın Suriyadakı hadisələr qarşısında əvvəlkindən daha qətiyyətli siyasət yürütməsində Liviyadan alınan dərslərin təsirli olduğunu söyləmək olar. İranın Suriyadakı maraqları ilə maraqları üst-üstə düşən Rusiyanın fikrincə, Əsəd rejiminin kənardan müdaxilə ilə devrilməsi İranın qısa müddətdə daha da təklənməsinə, ABŞ və İsrailin isə İrana daha asan müdaxilə etməsinə səbəb olacaqdı. Suriyadan sonra növbənin İrana çatacağını düşünən Rusiya həyati maraqları üçün Əsəd rejimini dəstəkləməyə davam etmişdir. Rusiya hesab edirdi ki, Əsəd rejiminin devriləcəyi halda İrana müdaxiləyə qapı açılacaq və Liviyada olduğu kimi Yaxın Şərqdən kənarda qalmasına gətirib çıxaracaqdı. Təbii ki, bu vəziyyət Rusiyanın cənub sərhədi ilə bağlı narahatlığını artırırdı. Yaxın Şərqdə heç bir müttəfiqi olmayan Rusiya üçün də təhlükə yaranacağı və bu səbəblə Əsəd rejimini müdafiə etmənin təkcə Yaxın Şərqdəki digər mühüm müttəfiqi olan İranı qorumaqla qalmayacağı, eyni zamanda, öz sərhədində də ola biləcək qeyri-sabitliyin qarşısını almağı hədəflədiyi vurğulanırdı [18].

Rusiya təkcə Əsəd rejimini dəstəkləməklə qalmadı. Hökuməti müxalifətə qarşı qorumaq və Əsədin devrilməsinin qarşısını almaq üçün hökumətlə razılaşma əldə edərək, 30 sentyabr 2015-ci il tarixindən etibarən Suriyaya birbaşa hərbi müdaxilə edərək təyyarələri ilə müxalifət hədəflərinə qarşı əməliyyatlar keçirməyə başladı [19]. Qlobal miqyasda ortaq bir təhlükə olaraq təyin olunan İŞİD-ə qarşı atılan addım bu giriş üçün lazımi bəhanə yaratdı. Rusiya cəbhəsi müharibəyə girməsini "terror təcavüzü"nə qarşı hərbi müdaxilə kimi qələmə verdi. Beləliklə, Rusiyanın Əsədin mövqeyini xilas etməsi ilə dünyadakı müttəfiq ölkələrin rejimlərinə "əgər çətin vəziyyətdəsinizsə, biz sizin arxanızdayıq" mesajı verilirdi [20].

Rusiyanın Dəməşqə hərbi yardımı faktiki olaraq 2012-ci ilin əvvəlindən həyata keçirilib [21]. Rusiyanın yalnız birbaşa hərbi müdaxiləsi münaqişəni rejimin xeyrinə dəyişdirdi. Moskva olmasa idi, bu rejim sağ qalmazdı. Rejim əhalinin məskunlaşdığı İdlib, Hələb, Rakka, Deyr-əz-Zor, Dəra və Kuneytra kimi əyalətlərdə nəzarəti itirmişdi. Bundan əlavə, Dəməşq Həma, Homs və Dəməşq yaxınlığındakı kəndlərə nəzarətini davam etdirmək üçün mübarizə aparırdı. 4 illik siyasi qarışıqlıq nəticəsində 2015-ci ilin sentyabrında Moskvanın birbaşa hərbi müdaxiləsi zamanı Dəməşq Suriya ərazisinin təxminən 25 faizini nəzarətində saxlamışdı [22].

2015-ci ildəki müdaxilədən sonra Moskva belə qənaətə gəldi ki, təkcə hərbi yardım ərazini geri almaq və müharibədən sonrakı Suriyada daxili sabitliyi təmin etmək üçün kifayət etməyəcək. Bundan sonra, rejim qüvvələrinin islahatı həm hazırkı rejimin təhlükəsizliyi, həm də müharibədən sonrakı Suriyanın daxili sabitliyi üçün vacib olmuşdur. Nəticədə, Rusiya Müdafiə Nazirliyi (MN) rejim qüvvələrini gücləndirmək üçün bir sıra qısa və ortamüddətli tədbirlər həyata keçirmişdi [23].

Rusiyanın Əsəd rejimini İŞİD və radikal müxaliflərdən qorumaq üçün həyata keçirdiyi hərbi müdaxiləsi ilə İŞİD-ə qarşı mübarizə aparan ABŞ ilə birlikdə Suriyanın gələcəyində rol oynadı. Təkcə İŞİD-i deyil, Suriyada islami rejim qurmağı hədəfləyən Nusra və Əhrar əş-Şam kimi radikal islamçı təşkilatları da hədəf alan Rusiyanın əməliyyatının digər hədəfi də ölkənin neft qaçaqmalçılığı infrastrukturu idi. Rusiya bu təşkilatlar tərəfindən ölkənin neft ehtiyatlarının qanunsuz satışının qarşısını almaq üçün əməliyyatlar apardığı bildirilirdi [24].

Beynəlxalq aləmdə imicini yüksəltmək, Aralıq dənizində gücünü artırmaq Suriyada YPG/PKK vasitəsilə ABŞ-ın artan təsirini tarazlaşdırmaq və müttəfiqinin süqutunun qarşısını almaq məqsədi güdürdü. Bununla da Rusiya, yuxarıda qeyd etdiyimiz kimi, həm qısa, həm də uzunmüddətli siyasi, hərbi və iqtisadi məqsədlərə nail oldu. O, həmçinin Yaxın Şərqdə nüfuz uğrunda rəqabətlə ayaqlaşa bildi. Rusiyanın 2015-ci ildən sonra qəbul etdiyi strategiyalar daha çox ekspansionist olmasa da,müharibənin gedişatına təsir etmək gücünə malik olduğunu sübut etdi. 2016-cı ildə Rusiya tərəfindən formalaşdırılan xarici siyasət konsepsiyası sənədində Suriya prioritet mövzular və bölgələr sırasına daxil edildi. Beləliklə də, Rusiya qüvvələri Suriya müharibəsində həlledici aktorlardan birinə çevrilmiş [1] və Suriyada ən dominant siyasi və hərbi qüvvə kimi ortaya çıxmışdır [25].

Suriyada 61 illik Baas rejiminin süqutu Yaxın Şərqdə və hətta daha geniş coğrafiyada balansların qəfil dəyişməsinə gətirib çıxardı [3]. Bununla belə, Əsəd rejiminin devrilməsi ilə Rusiya indi üsyançı qüvvələrə qarşı zəifləmiş vəziyyətdədir. Yaxın vaxtlara qədər Rusiya onlara qarşı hava hücumları təşkil etmiş və onları terrorçular kimi təsnif etmişdi; indi o, öz əsgərlərinin və Suriyada qalan hərbi aktivlərinin təhlükəsizliyini təmin etmək üçün eyni üsyançılardan asılıdır, eyni zamanda ümid edir ki, yeni rejim ona ölkədə ən azı müəyyən qədər mövcudluğunu saxlamağa imkan verəcək.

2024-cü il dekabrın 8-də Əsəd rejiminin süqutundan sonra Suriyada yerləşdirilən Rusiya qüvvələri üç daimi hərbi bazada - Xmeymim Hərbi Hava Bazasında, Tartus Hərbi Dəniz Qüvvələrində və Suriyanın şimalındakı Kürd bölgəsindəki Qamışlıda toplaşaraq, şəxsi heyətini və postlarını ölkənin hər yerindən geri çəkiblər. Bunlara cənub, şimal və şimal-şərqdəki mövqelər, həmçinin Suriya səhrası və Dəməşq, Hələb və Deyr əl-Zur kimi şəhərlər daxildir. Bu geri çəkilmə hakimiyyəti ələ keçirmiş üsyançılarla koordinasiya və onların himayəsi altında həyata keçirilib.

Rusiya eyni zamanda Suriyadan əhəmiyyətli miqdarda hərbi texnikanı çıxarıb. Bunu Xmeymim aviabazasında iri yük uçuşlarının sayının nəzərəçarpacaq dərəcədə artması və Rusiyanın Avropanın şimalındakı limanlarından çıxararaq Tartusa istiqamət alan ağır yükləri daşıya bilən müxtəlif hərbi və mülki dəniz gəmilərinin hərəkəti sübut edir. Rusiyanın Suriyadakı mövcudluğunun kritik elementi olan strateji S-400 hava hücumundan müdafiə sistemlərinin də mümkün çıxarılaraq Liviyaya yenidən yerləşdiriləbiləcəyi də hesab edilir.

Moskva üsyançılara münasibətdə diplomatik olaraq qəfil dəyişiklik etdi. Əsədin süqutu qaçılmaz oldu, Rusiya üsyançıları Əsədi dəstəkləyərkən davamlı olaraq "terrorçular" adlandırmağına baxmayaraq, artıq onları "silahlı müxalifət" və "yeni hakimiyyətlər" adlandırmağa başladı. Prezident Vladimir Putin də daxil olmaqla yüksək rütbəli Rusiya rəsmiləri Suriyanın yeni rəhbərliyi ilə rəsmi dialoq apardıqlarını etiraf ediblər. Moskva hətta Suriyanın BRİCS+ forumuna qoşulmağa dəvət edilməsini təklif edib ki, bu da "yeni Suriya"nı Rusiyanın diplomatik əlaqələri inkişaf etdirməli olduğu dost ölkə kimi tanımağa hazır olduğunu göstərir. Qeyd edək ki, Suriyanın yeni lideri Əhməd əl-Şaraa belə bir potensial anlaşmanın şərtləri hələ hazırlanmasa da, Kremllə razılığa gəlməyə hazır olacağına eyham vurmuşdu.

Rusiya Yaxın Şərqdəki əsas müttəfiqinin süqutundan sonra verdiyi böyük itkiləri azaltmaq üçün Suriyanın yeni rejimi ilə dialoqa girməyə çalışır. Moskva Əsəd rejiminə həm siyasi, həm diplomatik, həm də hərbi və maddi-texniki sahədə böyük sərmayə qoyub. Əsədin süqutu qismən Rusiyanın Ukraynadakı müharibəyə yönəlməsi ilə əlaqələndirilə bilər ki, bu da diqqəti Suriyadan yayındırdı və Əsəd rejimini hakimiyyəti saxlamaq üçün Moskvadan lazım olan hərbi və siyasi dəstəkdən məhrum etdi [25].

Ruslar, digər tərəfdən də Əsəd hər gün güclənən müxalifət qrupları ilə qarşılaşmağın getdikcə çətinləşdiyini gördü və müxalifətə qarşı mübarizəni ancaq bu qədər davam etdirə bildilər. Rusiyanın oradakı hərbi bazalarına görə şübhəsiz ki, yaxşı kəşfiyyat şəbəkəsi var və buna görə də müxalifətin güclənməsindən, Əsəd ordusunun məhv olmasından xəbərdar idi. Moskva bu səbəbdən Əsəd rejiminin gec-tez süqut edəcəyini bildiyi üçün müxalifətlə daha da düşmənçilik etmək istəmirdi. Çünki Rusiyanın onlarla müzakirə edəcəyi çoxlu məsələlər var [3]. Rusiya bu baxımdan hələ də qlobal fövqəldövlət imicini qoruyub saxlamağa çalışır ki, bu da regional problemlərə, xüsusən də Yaxın Şərqə potensial təsir göstərir. Onun Əsədə verdiyi dəstək qismən regiondakı digər rejimlərə Moskvanın müttəfiqlərini tərk etmədiyi və ona arxalana biləcəyi mesajı vermək məqsədi daşıyırdı.

Rusiya hazırda Əsəd rejiminin sabitliyini təmin etməkdə uğursuzluğunu həm rejimin, həm də Suriya ordusunun özünü müdafiə edə bilmədiyi iddiası ilə əsaslandırmağa çalışır. Bundan əlavə, Rusiya Suriyadakı hərbi məqsədinə - İŞİD-i məğlub etməyə nail olduğunu da iddia edib. Rejimin süqutu ilə bağlı bəyanatında Rusiya Xarici İşlər Nazirliyi diqqətlə vurğuladı ki, prezident Əsəd öz səlahiyyətlərini təhvil verib və ölkəni tərk etməzdən əvvəl faktiki olaraq istefa verib və bununla da Moskva ilə üsyançılar arasında hər hansı təması tamamilə qanuniləşdirib [25].

Hərbi və logistika müstəvisində Rusiyanın 2017-ci ildə Xmeymim Hərbi Hava Bazasını və Tartus Hərbi Dəniz Bazasını icarəyə götürməsi Şərqi Aralıq dənizi hövzəsində strateji dayaq yaratdı[1]. Tartus hərbi dəniz bazası Aralıq dənizində Rusiya gəmiləri üçün yeganə təmir və təchizat məntəqəsidir, Hmeymim aviabazası isə Rusiya ilə Afrika arasında logistikanı təmin edən bazadır. Ona görə də Moskva bu bazaların hər ikisini saxlamaqda davam etmək istəyir. Buna nail olmaq onun regiondakı nüfuzu baxımından da önəmlidir. Məhz buna görə də Moskva bir tərəfdən qapılarını Əsədin üzünə açarkən, digər tərəfdən müxalifətlə dərhal danışıqlar başladı və Suriyanın Moskvadakı səfirliyinin binasındakı köhnə bayraq yeni bayraqla əvəz olundu [3].

Rusiya tədricən Tartus limanının infrastrukturundan sərbəst istifadə etmək imkanını itirir. Rusiya texnikasını təxliyə etmək üçün göndərilən gəmilər həftələrlə limandan kənarda gözləmək məcburiyyətində qalıb. 2025-ci il yanvarın sonunda məlum olub ki, Suriya ilə mülki limanı idarə edən Rusiya şirkəti arasında investisiya müqaviləsi ləğv edilib.

Bu problem Ukraynadakı müharibənin səbəbindən davam edən logistika böhranı, Qərbin sanksiyaları, Qərb ölkələrinin hava məkanını bağlaması və Türkiyə boğazlarından dəniz nəqliyyatına qoyulan məhdudiyyətlərlə daha da ağırlaşır. Buna görə də, Rusiya Liviyanın şərqindəki hərbi və logistik dayaqlarını gücləndirməklə Suriya sahillərində mövcudluğuna alternativlər axtarır, burada hərbi rejiminin başçısı Xəlifə Haftar ilə uzun müddətdir əməkdaşlıq edir. Bu səyə Rusiyanın Suriyada yerləşdirdiyi bəzi imkanların Liviyaya köçürülməsi məqsədi ilə Xmeymim Hava Bazasından yük uçuşları daxildir.

Əsədin devrilməsindən sonra Moskvanın nisbətən zəifləmiş mövqeyinə baxmayaraq, Suriya daxilində Rusiyanın hələ də yeni rejimlə münasibətlərində istifadə edəcəyi bir neçə təsir nöqtəsi var. Suriyanın əsas buğda tədarükçüsü olan Rusiya illərlə davam edən vətəndaş müharibəsinin yaratdığı geniş iqtisadi böhrandan əziyyət çəkən ölkəyə ixracı dayandırıb. Buğda tədarükünün yenilənməsi Rusiyanın Suriyadakı hərbi bazalarının gələcəyi ilə bağlı danışıqlarda mühüm sövdələşmə vasitəsi ola bilər. Putin həqiqətən də artıq humanitar yardımın paylanması üçün bu bazalardan istifadə etməyi təklif edib. Bundan əlavə, Rusiya bu kritik məsələdə keçid hökumətinə yardım təklif etməklə Suriyanın kəskin neft çatışmazlığından istifadə edə bilər.

Suriyadakı yeni rejim Qərb dövlətləri də daxil olmaqla bir sıra xarici nümayəndə heyətinin Dəməşqə səfər etməsinə baxmayaraq, hələ də beynəlxalq ictimaiyyət tərəfindən rəsmi tanınmamışdır. Yeni rejimin mərkəzində dayanan "Hay'at Təhrir əş-Şam" qruplaşması uzun müddətdir ki, Rusiya, bir çox başqa ölkələr və BMT tərəfindən terror təşkilatı kimi tanınıb. Taliban nümunəsində göründüyü kimi, Kremlin terror təşkilatları ilə əlaqələri inkişaf etdirmək təcrübəsinə malikdir. Putin Talibanı “terrorla mübarizədə müttəfiq” adlandırıb. Rusiya Milli Təhlükəsizlik Şurasının katibi Kabilə səfər edib, Taliban nümayəndələri mütəmadi olaraq Rusiyada sosial, iqtisadi və siyasi forumlarda iştirak edirlər. Dekabrın sonunda

Rusiya üstəlik təşkilatların terrorçu qruplar siyahısından çıxarılmasını asanlaşdıracaq qanunu təsdiqləyib. Bu qanun ilk növbədə Taliban üçün nəzərdə tutulub, lakin o, eyni zamanda Rusiya Xarici İşlər Nazirliyinə "Həyat Təhrir əş-Şam"a da oxşar prosesi tətbiq etməyə imkan verə bilər. Bu da öz növbəsində Rusiyaya özünü Dəməşqdəki yeni rejim qarşısında beynəlxalq legitimliyinin arxasında duran əsas qüvvə kimi təqdim etməyə imkan verə bilər. Buna baxmayaraq, Dəməşqdəki yeni rejimin Rusiya ilə əməkdaşlığına yenidən baxmaq və Moskvanın ölkədə hərbi qüvvələrini saxlamaq tələbini rədd etmək üçün bir çox səbəbləri var. Üsyançı qüvvələr üçün Rusiyanın hava hücumları ilə bağlı xatirələr hələ də təzədir və onlar həm özlərinə, həm də Suriya xalqına niyə həmin Rusiya qüvvələrinin Suriya torpaqlarında qalmasına icazə verildiyini əsaslandırmaqda çətinlik çəkə bilər. Bundan əlavə, Suriyanın yeni lideri və onun müvəqqəti hökuməti özlərini mötədil aktor kimi qələmə vermək üçün hər cür səy göstərir və bununla da Qərbin etimadını və dəstəyini qazanır. Bu kontekstdə Rusiya ilə əməkdaşlıq bu səylər üçün əks-məhsuldar və zərərli hesab edilə bilər.

Rusiyanın Suriyada siyasi və diplomatik təsiri Əsəd dövrü ilə müqayisədə xeyli azalıb. Genişmiqyaslı hərbi yerləşdirmə, İran İslam İnqilabı Keşikçiləri Korpusu ilə əməliyyat koordinasiyası və Suriyanın təhlükəsizlik və hərbi xidmətləri ilə sıx əməkdaşlıq olmadan Rusiyanın Suriyanın gələcəyinin formalaşmasında dominant rol oynaması ehtimalı azdır – digər oyunçuların Dəməşqdəki yeni rejimə həddindən artıq təsirini tarazlayan amil istisna olmaqla [25].

Suriya ordusunun istefada olan generalı və müdafiə üzrə ekspert Turki əl-Həsən Suriyanın Moskva ilə hərbi əməkdaşlığının Əsəd rejimindən əvvəl olduğunu qeyd edib. O bildirib ki, Suriya ordusu yarandığı gündən Şərq Bloku silahları, xüsusilə Sovet İttifaqından, daha sonra isə Rusiyadan gətirilən silahlarla təchiz olunub. Suriya ordusunun bütün texnikası, Sovet İttifaqı və ya Rusiya istehsalıdır. Rusiyanın hesablamalarına görə, Suriya Ordusu 1956-1991-ci illər arasında Moskvadan dəyəri 26 milyard dollardan çox olan 5000 tank, 1200 döyüş təyyarəsi, 70 gəmi və bir çox başqa sistem və silahlar alıb. Sovet İttifaqı dağılanda bu pulun yarıdan çoxu ödənilməsə də, Rusiya lideri Vladimir Putin bu borcun 73 faizini silib. Rusiya bundan sonra da silah tədarükünü davam etdirdi. İndi Suriyanın yeni hökuməti ordusunu yenidən qurmaq üçün onu ya tamamilə yenidən təchiz etməlidir, ya da Rusiya təchizatından asılı qalmalıdır [26].

Əhməd əl-Şara BBC World News-a verdiyi müsahibədə Rusiyanın ölkədə qalmasına icazə verilmə ehtimalını istisna etməyib və iki ölkə arasındakı münasibətləri "strateji" adlandırıb. Lavrov Suriyanın yeni hökumətinin başçısı Əhməd əl-Şaranın bu yaxınlarda BBC-yə verdiyi müsahibəsində Suriyanın Rusiya ilə əlaqələrinin çox keçmişə getdiyini və strateji əhəmiyyət daşıması haqqında məlumat verdiyini bildirdi. Lavrov Rusiyanın da eyni münasibət bəslədiyini və Suriyalı dostları ilə bir çox ortaq cəhətləri olduğunu bildirdi.

2025-ci il yanvarın 28-də Rusiya xarici işlər nazirinin müavini Mixail Boqdanov və prezidentin Suriya üzrə xüsusi nümayəndəsi Aleksandr Lavrentyevin başçılıq etdiyi nümayəndə heyəti Dəməşqdə Suriyanın yeni hökumətinin başçısı Əhməd əş-Şara və xarici işlər naziri Əsəd əl-Şibani ilə danışıqlar aparıb. Rusiya tərəfi Suriyada baş verən dəyişiklikləri dəstəklədiyini bəyan edib, əməkdaşlığı genişləndirməyə hazır olduğunu bildirib və ölkənin yenidən qurulmasına kömək etməyə hazır olduğunu bildirib. Suriya tərəfi Rusiya silahlı qüvvələrinin vətəndaş müharibəsində Bəşər Əsəd tərəfində iştirakına görə təzminat ödənilməsi, habelə Əsədin özünün və potensial olaraq onun rejimindən olan digər rəsmilərin yeni hakimiyyətə ekstradisiya edilməsi məsələsini qaldırıb.

Bu, Moskvanın dəstəklədiyi Əsəd rejiminin süqutundan və sünni islamçı Heyət Təhrir əş-Şam qruplaşmasının hakimiyyəti ələ keçirməsindən sonra Rusiya nümayəndə heyətinin Suriyaya ilk rəsmi səfəri idi. Demək olar ki, Əsədin devrilməsindən dərhal sonra Kreml Suriyanın yeni rəhbərliyi ilə əlaqə qurmaq və əməkdaşlıq sahələrini araşdırmaq istəyini təklif edib. Hər iki tərəf, xüsusən də Moskvanın saxlamağı hədəflədiyi Rusiya hərbi bazalarının gələcəyi ilə bağlı danışıqları davam etdirmək planlarını açıqlayıb [28].

Rusiya prezidenti Vladimir Putin Suriyanın müvəqqəti lideri Əhməd əl-Şara ilə danışıb və bu, Suriyanın keçmiş prezidenti Bəşər Əsədin devrilməsindən sonra ilk belə yüksək səviyyəli təmasdır. 12 fevral 2025-ci il tarixində telefon danışığı zamanı əl-Şaraa iki ölkə arasında güclü strateji əlaqələri və Suriyanın bütün tərəflərə açıq olduğunu bir şərtlə vurğuladı ki, bu əməkdaşlıq Suriya xalqının maraqlarına xidmət etsin və Suriyanın sabitliyini və təhlükəsizliyini gücləndirsin. O, həmçinin Putinin Xarici işlər naziri Əsəd Əl-Şeybaniyə Rusiyaya səfər etmək üçün rəsmi dəvət göndərdiyini bildirib [27].

**Nəticə**

Rusiya Yaxın Şərqdə daim öz mövcudluğunu qoruyub saxlamağa çalışmışdır. Suriya müharibəsi başladığı ilk gündən etibarən Bəşər Əsəd rejiminə dəstək vermiş və hakimiyyətdə qalmağı üçün əlindən gələni etmişdir. Bu, Rusiyanın regionda olan geosiyasi maraqları ilə əlaqədardır. Rusiya, Əsəd rejiminin müdafiəsində hərbi iştirakını artırmaqla, Suriyadakı mövcudluğunu möhkəmləndirmiş və bölgədə strateji nüfuz qazana bilmişdir. Əsəd rejiminə verilən dəstəyə baxmayaraq, müxalif qüvvələr hakimiyyəti ələ keçirmiş və Bəşər Əsədin isə Rusiyaya sığındığı bildirilir.

Rusiya artıq Yaxın Şərqdə özü mövqeyini qorumaq üçün hakimiyyəti ələ almış Heyət Təhrir əş-Şam qruplaşması ilə münasibətləri normallaşdırmağa çalışır. Qarşılıqlı münasibətlərin daha səmərəli inkişafı üçün bir sıra cəhdlər atılmasına baxmayaraq, uğurlu nəticədən danışmaq hələ tezdir. Yeni rejimlə münasibətlərin normallaşdırılması Rusiyanın yaxın perspektivdə regionda fəaliyyət imkanlarını artırmağa kömək edəcəkdir.

**Açar sözlər:** *Rusiya, Suriya, Bəşər Əsəd hakimiyyəti, vətəndaş müharibəsi, yeni rejim.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Turkey and Russia in Syrian war: Hostile friendship (securityanddefence.pl)/ Turkey and Russia in Syrian war: Hostile friendship/18.09.2024*

*2. (34) SURİYE KRİZİ BAĞLAMINDA RUSYA'NIN ORTADOĞU POLİTİKASININ TÜRKİYE-RUSYA İLİŞKİLERİNE ETKİSİ | Elşan Izzetgil - Academia.edu/SURİYE KRİZİ BAĞLAMINDA RUSYA'NIN ORTADOĞU POLİTİKASININ TÜRKİYE-RUSYA İLİŞKİLERİNE ETKİSİ/18.09.2024*

*3. Rusya'nın yeni Suriye planı ne? - Fikir Turu/ Rusya'nın yeni Suriye planı ne?/21/01/2025*

*4. Yevgeny Primakov's Operational Code and Russian Foreign Policy/ YEVGENY PRIMAKOV'S OPERATIONAL CODE AND RUSSIAN FOREIGN POLICY*

*5. (PDF) Turkey and Russia in Syrian war: Hostile friendship/ Turkey and Russia in Syrian war: Hostile friendship*

*6. The Russian Intervention in Syria: Policy Options and Exit Strategies/The Russian Intervention in Syria: Policy Options and Exit Strategies*

*7. The West Fears Russia's Hybrid Warfare. They're Missing the Bigger Picture. | Carnegie Endowment for International Peace/The West Fears Russia's Hybrid Warfare. They're Missing the Bigger Picture*

*8. ROUTLEDGE_HANDBOOK_OF_RUSSIAN_FOREIGN_POLICY.pdf/ROUTLEDGE HANDBOOK OF RUSSIAN FOREIGN POLICY*

*9. Middle Eastern Studies » Submission » Russia and the Middle East Under Putin/Russia and the Middle East Under Putin*

*10. More than 200 weapons tested in Syria prove to be highly effective - Military & Defense - TASS/ More than 200 weapons tested in Syria prove to be highly effective*

*11. (PDF) Rusya, Türkiye ve Suriye İlişkileri/ Rusya, Türkiye ve Suriye İlişkileri*

*12. Suriye, Rusya için neden önemli? - Son dakika dünya haberleri – Sözcü (sozcu.com.tr)/ Suriye, Rusya için neden önemli?*

*13. (3) RUSYA'NIN SON DÖNEMLERDEKİ SURİYE POLİTİKASI RUSSIA'S RECENT SYRIAN POLICY | Mehmet Dalar - Academia.edu/RUSYA'NIN SON DÖNEMLERDEKİ SURİYE POLİTİKASI RUSSIA'S RECENT SYRIAN POLICY*

*14. Dicle Üniversitesi Hukuk Fakültesi Dergisi » Makale » Suriye Krizinde Koruma Sorumluluğu Çıkmazı (dergipark.org.tr)/ Suriye Krizinde Koruma Sorumluluğu Çıkmazı*

*15. 782068 (dergipark.org.tr)/ Rusya'nın Sıcak Denizlere İnme Politikası (Alman Deniz Yüzbaşısı Stenzel'e Göre İstanbul'a En Kısa Yol)**

*16. Moscow's middle east resurgence Russia's entrenchment in Syria | Request PDF/Moscow's middle east resurgence Russia's entrenchment in Syria*

*17. (37) Bağımsızlıktan 21. Yüzyıla Suriye-Rusya Siyasi İlişkileri/Bağımsızlıktan 21. Yüzyıla Suriye-Rusya Siyasi İlişkileri*

*18. Ankara Üniversitesi SBF Dergisi » Makale » İnadın Ötesinde: Rusya'nın Suriye Politikası/ İnadın Ötesinde: Rusya'nın Suriye Politikası*

*19. Rusya Suriye'de kimi vuruyor? - Son Dakika Haberler Milliyet/Rusya Suriye'de kimi vuruyor?*

*20. Baas'ın Son Kalesi Yıkılırken: Suriye'deki Rus Nüfuzu Sona Erdi mi?, Dosya / Suriye Emre Karaca | Kriter Dergi/Baas'ın Son Kalesi Yıkılırken: Suriye'deki Rus Nüfuzu Sona Erdi mi?*

*21. Russian arms shipments bolster Syria's embattled Assad - BBC News/ Russian arms shipments bolster Syria's embattled Assad*

*22. What has Russia gained from five years of fighting in Syria? | Features | Al Jazeera/What has Russia gained from five years of fighting in Syria?*

23. *Syrian Politics Trump Russian Military Reforms | Carnegie Endowment for International Peace/ Syrian Politics Trump Russian Military Reforms*

24. *Russia's Policy on Syria after the Start of Military Engagement - PONARS Eurasia/ Russia's Policy on Syria after the Start of Military Engagement*

25. *Despite Efforts to Remain in Syria, Russia Is Losing Its Status as an Important Security Actor in the Middle East | INSS/ Despite Efforts to Remain in Syria, Russia Is Losing Its Status as an Important Security Actor in the Middle Eas*

26. *Rusya'nın yeni Suriye'de bir geleceği var mı? - BBC News Türkçe /Rusya'nın yeni Suriye'de bir geleceği var mı?*

27. *Syria's leader, Russia's Putin make first contact since al-Assad's fall | Politics News | Al Jazeera/Syria's leader, Russia's Putin make first contact since al-Assad's fall*

28. *Russia strives to retain its military bases in Syria | OSW Centre for Eastern Studies/ Russia strives to retain its military bases in Syria.*

**Ретроспективный взгляд на действия России в Сирии и перспективы на будущее**

**Сабина Маммадова**
***Преподаватель Азербайджанского Университета Языков***
***Докторант Азербайджанского Университета Языков***

**РЕЗЮМЕ**

Россия всегда стремилась сохранить свое присутствие на Ближнем Востоке. С самого первого дня сирийской войны он поддерживал режим Башара Асада и делал все возможное, чтобы сохранить его у власти. Это обусловлено геополитическими интересами России в регионе. Увеличивая свое военное участие в защите режима Асада, Россия усилила свое присутствие в Сирии и приобрела стратегическое влияние в регионе. Несмотря на поддержку, оказываемую режиму Асада, оппозиционные силы захватили власть, и, как сообщается, Башар Асад нашел убежище в России.

Россия уже пытается нормализовать отношения с группировкой «Хайят Тахрир аш-Шам», которая пришла к власти, чтобы защитить свои позиции на Ближнем Востоке. Несмотря на ряд попыток более эффективно развивать взаимоотношения, говорить об успешном результате пока рано. Нормализация отношений с новым режимом поможет повысить способность России действовать в регионе в ближайшей перспективе.

**Ключевые слова:** *Россия, Сирия, режим Башара Асада, гражданская война, новый режим.*

**A retrospective view of Russia's actions in Syria and future prospects**

**Sabina Mammadova**
***Teacher at Azerbaijan University of Languages***
***Phd student at Azerbaijan University of Languages***

**SUMMARY**

Russia has always sought to maintain its presence in the Middle East. From the very first day of the Syrian war, it supported the regime of Bashar al-Assad and did everything possible to keep him in power. This is due to Russia's geopolitical interests in the region. By increasing its military involvement in protecting the Assad regime, Russia has strengthened its presence in Syria and gained strategic influence in the region. Despite the support provided to the Assad regime, opposition forces seized power and Bashar al-Assad reportedly found refuge in Russia.

Russia is already trying to normalize relations with the Hayat Tahrir al-Sham group, which came to power to protect its position in the Middle East. Despite several attempts to develop relations more effectively, it is too early to talk about a successful outcome. Normalizing relations with the new regime will help improve Russia's ability to act in the region in the near future.

**Keywords:** *Russia, Syria, Bashar al-Assad regime, civil war, new regime.*